Tarix və onun problemləri, №2 2010

**QİYAS ŞÜKÜROV**
*Girne Amerikan Universitetinin Dosenti*

# XIII-XV ƏSRLƏRDƏ ƏNDƏLÜSDƏ TƏHSİL SİSTEMİ*

Pireney yarımadasının cənub-şərqində yerləşən Qrenada, Malaqa və Almeriya kimi bölgələr XIII-XV əsrlər arasında Bəni Əhmər dövlətinin idarəsi altında idi. Bu dövlət yarımadadakı Əndəlüs mədəniyyətinin izlərini daşıyan son siyasi təşəkkül idi. 1232-1492-ci illərdəki mövcudiyyəti ərzində bu dövlət, şərq və qərb sivilizasiyaları arasında mühüm bir körpü rolunu icra edirdi. Şərqdən və qərbdən gələn ictimai-siyasi nəzəriyyələr, elmi-mədəni tendensiyalar, hər şeydən əvvəl, bu coğrafi sahədə qarşılaşır, elmi, ədəbi və mədəni yeniliklər şəklində yeni inkişaf sferası tapırdı. Məhz bu səbəblə Bəni Əhmər dövrü Əndəlüs mədəniyyətinin arxa planını təşkil edən təlim-tədris fəaliyyətləri, başqa bir ifadə ilə təhsil sistemi dərin elmi maraq doğurur. Qeyd etmək lazımdır ki, bu mövzu, eyni zamanda, elmi bir problem olaraq sahə mütəxəssislərinin qarşısında durur. Bəhs olunan dövrün maarifçilik fəaliyyətləri məhz bu məqalənin təməl tədqiqat obyektini təşkil edir. Mövzu ilə əlaqədar bir neçə aktual sual xüsusi əhəmiyyət kəsb edir: "Bəni Əhmər dövründə ölkədəki təlim-tədris fəaliyyətləri necə icra edilirdi? Təhsil müəssisələrinin vəziyyəti, tədrisin keyfiyyəti necə idi? Təhsil müəssisələrində oxudulan dərslər ilə bu dərslərin müfrədatını nələr təşkil edirdi?" - Tədqiqat işi, qeyd etmək lazımdır ki, bu və ya bənzər suallara cavab axtarışları ilə bu mövzudakı mövcud situasiyanın elmi təhlilindən ibarətdir.

Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, Bəni Əhmər dövründə təlim-tədris işləri bilavasitə dövlət idarəçilərinin himayəsi altında idi. Məhəmməd İbn əl-Əhmər (1232-1272), Məhəmməd əl-Fəqih (1272-1302) və Məhəmməd əl-Məxlu (1302-1309) timsalında bir neçə mütərəqqi görüşlü dövlət idarəçiləri təhsil sistemi ilə yaxından maraqlanırdılar. Onların təhsil sisteminə baxışları sadəcə maraqla məhdudlaşmırdı, əksinə adları qeyd olunan dövlət xadimləri təhsil müəssisələrini himayə edirdilər (5, s. 234-235, 257; 20, s. 374).

Təhsil müəssisələri əsas etibarilə Qrenada, Malaqa və Almeriya şəhərlərində yerləşirdi. Adları sadalanan şəhərlərdə tam təchizatlı bir sıra mədrəsələr vardı. Malaqa və Qrenada şəhər mədrəsələri bu tip təhsil müəssisələrinin konkret nümunələri idi. Bəhs olunan təhsil müəssisələrinin ən məşhuru isə Qrenada mədrəsəsi idi. "Yusifiyyə mədrəsəsi" və "Nasiriyyə mədrəsəsi" adlarıyla məşhur olan bu mədrəsə (5, s. 262; 15, s. 159), Sultan Əbu əl-Həccac Yusif ibn İsmayıl dövründə (1333-1354) Vəzir Əbu ən-Naim Rizvanın xüsusi səyləri nəticəsində inşa edilmişdi (5, s. 109, 262; 9, I, s. 508-509; 15, s. 214; 18, s. 160; 21, s. 292). Qrenada mədrəsəsi şəhərin əl-Qeysəriyyə qismindəki böyük məscidinin yaxınlığında yerləşirdi (17, s. 350; 19, s. 282). İnşaat prosesində mədrəsənin bütün labüd ehtiyaclarının diqqətə alındığını qeyd etmək lazımdır. Məsələn, şəhəri iki yerə bölən çaydan mədrəsə üçün su kəməri çəkilmişdi (5, s. 262; 9, I, s. 509). Buna əlavə olaraq, mədrəsənin yanında bir kitabxana inşa edilmişdi. Bu kitabxana, mədrəsə nəzdindəki elmi-tədris fəaliyyətini dəstəkləmək məqsədi ilə açılmışdı. Fərdi şəxslərin bəxşişləri və yaxud da satın almalar nəticəsində kitabxananın kitab bazası təbii şəkildə artırdı.

Qrenada mədrəsəsi Bəni Əhmər dövrünün elmi-tədris fəaliyyətinin aynası hesab edilirdi. Mədrəsənin tədris məqsədləri giriş qapılarından birinin üzərinə nəfis xətlə həkk edilən belə bir müdrik kəlam ilə açıq şəkildə bəyan edilmişdi: *"Dünya həyatı bu dörd təməl üzə-*

* Bu məqalə Memar Sinan İncəsənət Universiteti Sosial Elmlər İnstitutu Orta Əsrlər Tarixi Kafedrasında fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün müdafiə etdiyim "Benî Ahmer Devleti 1232-1492" adlı dissertasiya işinin elmi materialları əsasında hazırlanmışdır.

*rində inşa edilmişdir: Müdriklərin elmi, idarəçilərin ədaləti, saleh əməlli insanların duaları və igidlərin şücaəti."*(2, s. 129; 4, s. 894). Bu hikmətli söz, şüphəsiz ki, dövrün təhsil sisteminə ümumi baxışı əks etdirirdi. Bəni Əhmər toplumu alimlərin elminə və idarəçilərin ədalətinə etibar edirdi. Saleh əməlli insanların duaları ilə igidlərin şücaəti isə bu prosesi tamamlayırdı.

Qrenada mədrəsəsi, orta əsrlərin ümumi ictimai şərtləri nəzərə alındığında, universitet mahiyyətli bir təhsil ocağı idi. Bu mədrəsədə fiqh, qiraət, təfsir və hədis kimi dini elmlərlə bərabər, fizika və riyaziyat kimi dəqiq elmlər, botanika və təbabət kimi təbiət elmlər, fəlsəfə, psixologiya, tarix və ədəbiyyat kimi ictimai elmlər tədris edilirdi. Buna əlavə olaraq, ərəb dili və bəlağəti öyrədilir, əruz vəzninin sirləri haqqında tələbələrə texniki biliklər verilirdi. Astronomiya dərslərində isə ulduzların hərəkət trayektoriyası izlənir, göy cisimləri ilə əlaqədar mütərəqqi tədqiqatlar aparılır, astroloji cədvəllər hazırlanırdı.

Qrenada mədrəsəsində tədris olunan fənlərin müfrədatı, əlbəttə ki, tədqiq edilən mövzu nöqteyi-nəzərindən xüsusi əhəmiyyət kəsb edir. Bu mövzu ilə əlaqədar veriləcək bir neçə nümunə müfrədatının mahiyyətini açıqlığa qovuşdurmaq üçün kafidir. Məsələn, dini elmlər sahəsində Malik ibn Ənəsin "əl-Müvatta" və Qazı Əbu Bəkir ibn Asim əl-Qırnatinin "Tuhfə əl-hükkam fi nukat əl-ukud və əl-əhkam" (13, I, s. 145; 16, II, s. 341) kitabları oxudulurdu. Dilçilik və ədəbiyyatşünaslıq sahələrində isə Sibeveyhin qrammatika ilə əlaqədar əsəri, Əbu əl-Fərəc əl-İsfəhaninin "əl-Əğani" əsəri, Cahizin (ö. 255/869) əsərləri və Əbu Məhəmməd Qasım əl-Haririnin (516/1122) məqamələri oxudulurdu (15, s. 160-161).

Qrenada mədrəsəsində dövrün bir sıra maarif və elm xadimləri tədris fəaliyyəti ilə məşğul olurdular. Məsələn, qeyd olunan dövrdə fiqh, metodologiya, cəbr və ərəb dilçiliyi sahələrində dərin biliyə sahib alimlərdən Məhəmməd ibn Məhəmməd ibn Muharib əs-Sarihi (ö. 750/1349) paytaxta dəvət edilmiş və mədrəsədə işlə təmin edilmişdi (9, III, s. 79). Mədrəsədəki fiqh, metodologiya, ərəb dili və ədəbiyyatı dərslərini Əbu Said ibn Lübb ət-Təğlibi (ö. 782/1380) verirdi (5, s. 264; 7, s. 186-196; 8, s. 484; 9, s. IV, 253-255; 15, s. 154). İbn əl-Fəhhar ləqəbi ilə məşhur olan Əbu Abdullah Məhəmməd ibn Əli (ö. 754/1353) isə tələbələrinə ərəb dili, qiraət, təfsir və əruz elmlərinin sirlərini öyrədirdi (5, s. 264; 9, III, s. 36; 11, s. 143). Orta ərslərin məşhur ərəb dilçilərindən Əbu Cəfər Əhməd ibn Əli ibn Məhəmməd ibn Hatimə əl-Ənsari (ö. 770/1369) öz ixtisas sahəsində bir xeyli tələbə yetişdirmişdi (5, s. 264; 6, s. 156-157; 7, s. 175-179; 9, I, s. 239-259, II, s. 491-493; 16, II, s. 335-336). Əbu Zəkəriyyə Yəhya ibn Əhməd ibn Hüzeyl ət-Tucibi (ö. 753/1353), tibb elmində ixtisaslaşmış olub, Qrenada mədrəsəsində təbabət dərsləri verirdi (5, s. 265; 9, IV, s. 390; 15, s. 162). Bu alim mədrəsədəki tədris fəaliyyəti ərzində tibb elminə vaqif çoxlu tələbə yetişdirmişdir. Onun tələbələri arasında Lisanəddin ibn əl-Xətibin xüsusi yeri vardır. Bu tələbə sonrakı tarixlərdə vəzirlik vəzifəsinə yüksəlməklə birlikdə, təbabət, ərəb dilçiliyi və tarixşünaslıq sahələrində müvəffəqiyyətli əsərlər təlif etmişdir (9, IV, s. 459).

Mədrəsənin müdərrisləri arasında qonşu ölkələrdən gələn bir sıra əcnəbi alimlər vardı. Məğribin Tilimsan şəhərindən gələn Məhəmməd ibn Əhməd ibn Əbu Bəkir ibn Məzruq əl-Acisi (ö. 771/1369) bu şəkildə fəaliyyət göstərən maarifçilərdən biri idi (5, s. 264; 9, III, s. 103-130). Məşhur müfəssir, fəqih və kəlam alimi Əbu Əli Mənsur ibn Əli əz-Zəvvavi isə 753 (1352)-ci ildə Qrenadaya yerləşmiş və mədrəsədə tədris fəaliyyəti ilə məşğul olmuşdur (9, III, s. 325).

Qrenada mədrəsəsinin tələbə kontingentinin tərkibinin kosmopolit olduğu müşahidə edilir. Burada müsəlman tələbələrlə birlikdə kastilıyalı və Araqon krallıqlarından gələn xristian dininə mənsub tələbələr də təhsil alırdılar.

Qeyd etmək lazımdır ki, Qrenada mədrəsəsi, elmi-tədris müəssisəsi kimi, fəaliyyətini Bəni Əhmər dövlətinin çöküşündən sonrakı tarixdə dayandırmaq məcburiyyətində qalmış-

dır. Mədrəsənin binası isə XVIII əsrə qədər muhafizə edilmişdir. Qeyd olunan əsrdən sonra mədrəsə binası xarabazara çevrildiyi üçün yerində yeni bir bina tikilmişdir. Qrenada mədrəsəsindən dövrümüzə sadəcə bir neçə dekorativ sənət əsəri çatmışdır. Bu tarixi əsərlər isə hal-hazırda Qrenada Arxeologiya Muzeyində mühafizə edilir (5, s. 109, 262; 8, s. 126).

Bəni Əhmər dövrünün Əndəlüs mədrəsələri arasında ikinci sırada Malaqa mədrəsəsi yer alır. Bu mədrəsə XIV əsrin birinci rübündə tədris fəaliyyətinə başlamışdır. Mədrəsənin texniki bazası isə şəhərin mərkəzində yerləşən məscidin yaxınlığında inşa edilmişdi (1, s. 486).

Qrenada və Malaqa mədrəsələri timsalındakı təhsil müəssissələrindəki təhsili məyyən edilmiş vaxt ərzində müvəffəqiyyətlə başa vuran tələbələr ümumi bir imtahana girirdilər. Bu imtahanda müvəffəq olduqları təqdirdə onlara məzuniyyət izni verilirdi. Müvəffəqiyyətli bir məzuniyyəti təsdiq etmək məqsədi ilə tələbələrə diplom, yəni icazət sənədi verilirdi.

Məscidlər və xüsusi mənzillər mədrəsə xaricindəki təlim və tərbiyyənin verildiyi ən mühüm tədris müəssisələri idi. Bu fəaliyyəti məqsədyönlü icra etmək üçün məscidlərin müəyyən yerlərində xüsusi yerlər ayrılmışdı. Xalqdan arzulu şəxslər məsciddə ibadətini və duasını etdikdən sonra qeyd olunan yerə keçib cüzi miqdarda ödənək müqabilində orada verilən təhsildən istifadə edir və beləliklə fərdi biliklərini artırırdılar (12, I, s. 181). Qeyd etmək lazımdır ki, məscid və mənzillərdə verilən təhsil də bir sıra din və maarif xadimləri tərəfindən icra edilirdi. Məsələn, İbn əd-Dəbbağ ləqəbi ilə tanınan Məhəmməd ibn İbrahim ibn əl-Müfərric əl-Əvsi (ö. 668/1269) bu şəkildə fəaliyyət göstərən marifçilərdən biri idi. Qrenada şəhərində qeyri-rəsmi tədris fəaliyyətlərini icra edən bu şəxs, özəl olaraq, fiqh, metodologiya və etiqad dərsləri verirdi (9, III, s. 68-69). Mənşə etibarilə Mürsiyəli olan Əbu Abdullah Məhəmməd ibn İbrahim ibn Məhəmməd əl-Əvsi (ö. 715/1315) isə Qrenada şəhərində özəl tədris fəalliyyəti ilə məşğul olur; tələbələrinə təbabət və metodologiya dərsləri verirdi (5, s. 257; 9, III, s. 69-70). Onunla eyni dövrdə yaşayan Əbu əl-Həsən Əli ibn Ömər əl-Kinani əl-Qaycati (ö. 730/1329) tədris fəaliyyətində ön plana çıxan müdərrislərdən biri idi. Qaycati Qrenadadakı böyük məsciddə fiqh, ərəb dili və ədəbiyyatı dərsləri verirdi (5, s. 257-258; 9, IV, s. 104-107, 458). Məşhur fəqih və ədib İbn əl-Hac əl-Billifiqi isə həftənin müəyyən günlərini tədris işlərinə sərf edir, Malaqa və Almeriya şəhərlərindəki məscidlərdə dərslər verirdi. Onun tələbələri arasında Lisanəddin ibn əl-Xətib, İbn Xəldun, İbn Zəmrək, Əli ibn əl-Hüzai və Yəhya ibn Əhməd əs-Sərrac kimi bir sıra məşhur simanın adını qeyd etmək mümkündür (3, s. 53).

Təlim-tədris fəaliyyətlərində özəl təhsilin özünəməxsus yeri vardı. Belə bir təhsil növü, əksəriyyət etibarı ilə dövlət idarəçiləri və şəhər aristokratları arasında yayğın olaraq istifadə edilirdi. Qeyd olunan təbəqələrin nümayəndələri öz övladlarının təlim-tərbiyyəsini, adətən bu şəkildə təşkil edirdilər. Xüsusilə Qrenadada yaşayan elm xadimləri və müəllimlər bu fəaliyyət növünün mərkəzində yer alırdılar. Bu şəxslər sultan ilə vəzirlər, əmirlər və bürokratların övladlarının təlim-tərbiyyəsi ilə məşğul olur, onların layiqli və bilikli vətəndaşlar kimi yetişmələrinə cavabdeh olurdular (5, s. 265-266). Belə tədris fəaliyyətləri əksəriyyət etibarı ilə saray mühitində, bürokratların şəxsi evlərində icra edilirdi. əl-Hamra qəsri, bu növ təlim və tədris işləri üçün əhəmiyyətli bir təhsil ocağı idi. Bu tədris müəssisəsində Bəni Əhmər sultanının övladları ilə digər dövlət idarəçilərinin övladları təhsil alırdılar. əl-Hamra qəsrindəki təhsil ocağında dövrün məşhur elm xadimləri və müdərrisləri tədris fəaliyyəti ilə məşğul olurdular. Məsələn, I Yusifin övladlarının təlim və tərbiyyəsini, dövrün məşhur elm xadimi və dövlət adamı Əbu ən-Naim Rizvan öhdəsinə götürmüşdü (9, I, s. 507, 510; 15, s. 159). əl-Hamrada ayrılan xüsusi otraqlarda bu elm və maarif xadimi öz biliklərini tələbələrinə öyrədirdi. Bəni Əhmər sultanı Əbu əl-Vəlid II İsmayıl belə bir təhsil sisteminin yetişdirdiyi konkret simadır. Uşaqlıq illərində gələcəyin bu dövlət rəhbəri ilə qardaşı

əl-Hamra qəsrindəki təhsil yuvasında tərbiyyə edilmiş və məşhur elm-maarif xadimi Məhəmməd əş-Bətruhinin dərslərində iştirak etmişdir (5, s. 265-266; 9, I, s. 398). V Məhəmmədin müəllimi vəzifəsinə isə məşhur dövlət və elm xadimi Lisanüddin İbn əl-Xətib təyin edilmişdi (15, s. 159). Qrenada şəhərində imam və xətib vəzifələrini icra edən din alimi Məhəmməd ibn Yəhya əl-Əşari əl-Maleqi (ö. 741/1340), eyni zamanda özəl tədris fəaliyyəti ilə məşğul olur, ərəb dili, fiqh, metodologiya, fəraiz və cəbr dərsləri oxudurdu (9, II, s. 176-177; 14, s. 177-184; 16, II, s. 336-337). Qrenadanın məşhur müdərrisləri arasında Əbu Məhəmməd Abdullah ibn Məhəmməd ibn Əhməd ibn Cüzeyyin xüsusi yeri vardır. İbn Cüzeyy, özəl tədris halqəsinə daxil olan tələbələrə ərəb dilçiliyinin sirlərini öyrədirdi (9, III, s. 392). Qrenadada özəl tədrislə məşğul olan müdərrislərin bir qismini mühacir müəllimlər təşkil edirdi. Malaqalı Əhməd ibn Zübeyir ibn Məhəmməd (ö. 708/1309) belə maarif işçilərinin konkret bir timsalıdır. Bu təhsil fədaisi, yerli əyanlarla çıxan ixtilaf səbəbi ilə Malaqanı tərk edib Qrenadaya yerləşmiş və burada özəl tədris fəaliyyəti ilə məşğul olmuşdur. Bu şəxs fiqh, ərəb dili, təcvid və hədis elmlərinin tədrisi ilə məşğul olmuşdur (5, s. 258-259).

Təhsil müəssisələrinin idarə və təftişi, dövlət adına hərəkət etdiyini bəyan edən din xadimlərinin ixtiyarında idi. Din xadimləri tədris prosesində oxudulacaq dərsləri müəyyən edir, ümumi müfrədat haqqında tövsiyyələr verirdilər (18, s. 160). Saray və qəsrlərdə fəaliyyət göstərən özəl təhsil sistemində isə dərs üçün təyin olunan müdərrisin özü dərslərin müfrədatını müəyyən edirdi. Ancaq özəl təhsilin müfrədatı digər təhsil növlərinin müfrədatından elə də fərqlənmirdi. Müxtəliflik ancaq metodologiya və tətbiqat sahələrində idi.

Mədrəsələrdə işləyən müəllimlərin maaşlarının bəzi hallarda dövlət xəzinəsindən ödəndiyini qeyd etmək lazımdır. Qaynaqlarda bu mövzu ilə əlaqədar bəzi qeydlərə təsadüf etmək mümkündür. Məsələn, məşhur fəqih Məhəmməd ibn Əhməd ibn Fəttah ibn Şükral əl-Ləhmi (ö. 730/1329) təlim-tədris fəaliyyətlərində müvəffəqiyyətləri səbəbiylə vəzir Əbu Abdullah əl-Məhruqun xüsusi etimadına nail olmuş və ona xəzinədən maaş verilməsi haqqında qərar alınmışdı (5, s. 260; 9, III, s. 23-25). Vəzir Lisanəddin İbn əl-Xətib də müəllimlərin maaşı ilə yaxından maraqlanır və tədrislə məşğul olan maarif xadimlərini himayə edirdi. Məsələn, cəbr, fəlsəfə, dil, ədəbiyyat və tarix elmlərində söz sahibi olan alimlərdən Əbu Cəfər Əhməd ibn İbrahim ibn Əhməd ibn Safvan (ö. 763/1362), adı qeyd olunan vəzirin xüsusi təqdirini qazandığı üçün ona dövlət xəzinəsində hər ay maaş ödənirdi (7, s. 131-137; 9, I, s. 221-232, 381; 10, s. 79). Ümumilikdə isə tədirs müəssisələrinin, ələlxüsus mədrəsə və məscidlərdə verilən təhsilin bütün məsrəfləri vəqflər (xeyriyyə fondları) vasitəsilə qarşılanırdı. Xeyirxah məqsədlər üçün bağışlanmış qeyri-mənqul əmlaklardan əldə edilən gəlirlər bu cür içtimai müəssisələrin illik məsrəflərinə sərf edilirdi. Özəl təhsil sistemində isə övladları və yaxud da qohum əqrabalarının təhsilini istəyən şəxslərin məhz özləri tədris üçün lazım olan maddi-texniki bazanın məsrəflərini və müəllimin aylıq əmək haqqını ödəyirdilər.

Nəticə etibarı ilə qeyd etmək lazımdır ki, Bəni Əhmər dövrünün təlim-tərbiyyə fəaliyyətləri yarımadadakı 8 əsrlik elmi və mədəni potensialnın izlərini daşıyırdı. Malaqa, Almeriya və Qrenada kimi Bəni Əhmər şəhərlərində tədrislə məşğul olan maarif xadimləri arasında yerli maarif xadimləri üstünlük təşkil edirdi. Bununla bərabər, təhsil ocaqlarında işləyən müəllimlər arasında Araqon və Kastilya işğalına məruz qalan Qurtuba, Valensiya və Mursiya kimi Əndəlüs şəhərlərindən gələn elm və marif xadimləri vardı. Əlbəttə ki, Məğribdən gələn mühacir elm xadimlərinin də, öz növbələrində dövrün maarifçilik fəaliyyətlərində böyük xidmətləri olmuşdur. Məhz bu səbəblə Bəni Əhmər dövrü təhsil ocaqları Avropa, Asiya və Quzey Afrika ölkələrinin elmi-tədris potensialını özündə birləşdirirdi. Bu tendensiya təhsil müəssisələrindəki tələbə kontingenti nöqteyi-nəzərindən də eyniyyət təşkil edirdi.

Malaqa və Qrenada mədrəsələrində yerli tələbələrlə birlikdə çox sayda afrikalı, kastilyalı və araqonlu tələbə təhsil alırdı.

## *ƏDƏBİYYAT*

***Türk dilində***

1. Erdoğan Mehmet. "İbnü'l-Hâc el-Billifikī". DİA (Türkiye Diyanet Vakfı İslam Ansiklopedisi). Türkiye Diyanet Vakfı Yayınları, İstanbul, 2000, XXI, səh. 52-53.
2. Yiğit İsmail. Siyasî-Dinî-Kültürel-Sosyal İslâm Tarihi: Beni Ahmer Devleti (Gırnata Sultanlığı: 629-897/1232-1492). Kayıhan Yayınları, İstanbul, 1995, IX.
3. Secall İsabel Calero. "Mâleka". DİA, Türkiye Diyanet Vakfı Yayınları, Ankara, 2003, XXVII, səh. 485-486.
4. Hitti Philip K.. Siyâsî ve Kültürel İslam Tarihi. Çev. Salih Tuğ, Marmara Üniversitesi İlâhiyat Fakültesi Vakfı Yayınları, İstanbul, 1995, II.

***Ərəb dilində***

5. əd-Devsəri Əhməd Sani. əl-Hayāt əl-ictimāiyyə fī Ğırnāta fī 'asri devləti Bəni əl-Əhmər. əl-Məcma əs-səkāfī, Əbū Zabī, 2004.
6. İbn əl-Əhmər Əbu əl-Vəlīd İsmāīl ibn Yūsuf ibn əl-Ğırnātī əl-Əndəlüsī. Məşāhīr əş-şuarā və əl-küttāb: Nəsīrü fərāid əl-cümān fī nazmi fühūl əz-zəmān. təhqiq: Muhamməd Rıdvān əd-Dāyə, 'Āləm əl-kütub, Beyrūt, 1986.
7. İbn əl-Əhmər Əbu əl-Vəlīd İsmāīl ibn Yūsuf ibn əl-Ğırnātī əl-Əndəlüsī. A'lām əl-Məğrib və əl-Əndəlüs: Nəsīr əl-cümān fī şi'ri mən nazamənī və iyyāh əz-zəmān. təhqiq: Muhamməd Rıdvān əd-Dāyə, Müəssəsət ər-risālə, Beyrūt, 1987.
8. İnān Muhamməd Abdullah. Devlət əl-İslām fī əl-Əndəlüs: əl-'Asr ər-rābi – Nihāyət əl-Əndəlüs və Tārīx əl-'Arab əl-Mütənassirīn, Məktəbət əl-Hāncī, Qāhirə, 1417/1997.
9. Lisānüddīn İbn əl-Xətīb. əl-İhāta fī əxbāri Ğırnāta, təhqiq: Muhamməd Abdullah İnān, Məktəbət əl-Hāncī, Qāhirə, 1393-1397/1973-1977, I-IV.
10. Lisānüddīn İbn əl-Xətīb. əl-Ləmha əl-bədriyyə fī əd-devlət ən-Nasriyyə, Dār əl-āfāk əl-cədīdə, Beyrūt, 1400/1980.
11. Lisānüddīn İbn əl-Xətīb. Müşāhədāt Lisāniddīn ibn əl-Xətīb fī bilād əl-Məğrib və əl-Əndəlüs (məcmūa min rəsāilihī), təhqiq: Əhməd Muxtār əl-Abbādī, Müəssəsətü Şəbāb əl-Cāmi'a, İskəndəriyyə, 1983.
12. əl-Makkarī Əhməd ibn Muhamməd ət-Tilimsānī. Nəfh ət-tīb min ğusn əl-Əndəlüs ər-ratīb və zikrü vəzīrihā Lisāniddīn ibn əl-Xətīb, təhqiq: Yūsuf əş-Şeyx Muhamməd əl-Bəqāī, Dār əl-fikr, Beyrūt, 1419/1998, I.
13. əl-Makkarī Əhməd ibn Muhamməd ət-Tilimsānī. Əzhār ər-riyād fī əxbāri 'iyād, təhqiq: Mustafā əs-Sakkā, İbrāhīm əl-Əbyārī, Əbdü'l-hāfiz əl-İşbīlī, Matbaatü ləcnə ət-tə'līf və ət-tərcümə və ən-nəşr, Qāhirə, 1358/1939, I.
14. ən-Nübāhī Əbu əl-Hasan əl-Əndəlüsī. Tārīxu Qudāt əl-Əndəlüs: əl-Mərkabət əl-'ulyā fī-mən yəstəhikk əl-kazā və əl-futyā, təhqiq: Məryəm Kāsım Tavīl, Dār əl-kütub əl-'ilmiyyə, Beyrūt, 1995.
15. Fərhāt Yūsuf Şükrī. Ğırnāta fī zılli Bəni əl-Əhmər: dirāsə hadāriyyə, əl-Müəssəsə əl-cāmi'ə li'd-dirāsāt və ən-nəşr və ət-təvzī, (y.y.), 1402/1982.

***Avropa dillərində***

16. Brockelmann Carl. **GAL**, I-II, E.J. Brill, Leiden, 1937-1949.
17. Burckhardt Titus. La Civilización Hispano-Árabe. Historia y Geografía Alianza Editorial, Madrid, 1977.
18. Masud Muhammad Khalid. "Religion and Society in the Fourteenth Century Muslim Spain". Islamic Studies, XXVII/4 (1978), səh. 157-169.
19. Puertas Antonio Fernández. "Granada: History and Urban Development". DA (The Dictionary of Art), Ed. Jane Turner, MacMillan Publishers Limited, London&New York, XIII (1996), səh. 281-282.
20). Sahibzade Masud-ul-Hassan Khan Sabri. History of Muslim Spain. Publishers Emporium, Lahor, (t.y.).

21. Vernet Juan, Samsó Julio. "El Saber Científico y Técnico (1086-1492)". Historia de España: El Reino Nazarí de Granada (1232-1492) - Sociedad, Vida y Cultura, Ed. Menéndez Pidal, Espasa Calpe, Madrid, 2000, VIII/4, səh. 287-322.

**QİYAS SHUKUROV**

## THE EDUCATİONAL STRUCTURE OF ANDALUSİA BETWEEN THE XIII-XV CENTURIES

Nasrīd (Banī Ahmar) Kingdom was the last moorish state in the Iberian Peninsula. The kingdom was situated in the southeastern part of peninsula. Its societty and culture were mixed and cosmopolitian. That is why its educational system and scientific degree has a special importance. This article, too, seeks to provide scientific accounts of educational appearances in the cities of the Nasrīd period. Additionally, some important subjects as well as the primary and high schools (madrasa), private education and civil institutions are investigated in the article. The main aim of the study is to find out the precise facts of the degree quality of Andalucian education in the Nasrīd period. The teachers and their educational activities in the Nasrīd cities are the other additional subeject of study.

**ГИЯС ШУКУРОВ**

## СИСТЕМА ПРОСВЕЩЕНИЕ В ЕНДЕЛУЗЕ В XIII – XV ВЕКАХ

В статье освещается система просвешение во времена правление Енделузского государство Бени Ахмедом. Автор подчеркивает применяюмые новшествы в Енделузском государстве. В частности он анализируя этот период приходит к выводу, что в XIII – XV веках в стране система обучение было достаточно прогрессивно и проводились в больших учебных центрах. Кроме Енделузцев в этих учебных заведениях обучались студенты из Азии, Африки и многих других стран. В этих учебных заведениях просветители выше названных стран свои знание и опыт доводили к студентам.

***Rəyçilər: dos.A.Ə.Rzayev, t.e.d.Q.Ə.Əliyev.***

***BDU-nun Tarix fakültəsinin «Azərbaycan tarixi» (humanitar fakültələr üzrə) kafedrasının 20 may 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***